İSSN-0207-4710

# GÖYƏRÇİN

ü il 11





# KAFTARKOS NECƏ BAZARA GETDİ?

*(Afrika nağılı)*

Dovşan bazara gedib özü üçün kələm, kök, yerfındığı aldı. O, bazarlıq edib meşəyə qayıdanda kaftarkosa rast gəldi. Aldıqlarından bir parça kəsib kaftarkosa verdi ki, dadına baxsın.

-Oy, necə də dadlıdır?! Bunları hardan almaq olar? - kaftarkos soruşdu.

Dovşan cavab verdi:

-Əlbəttə, bazardan. Bazarda ürəyin nə istəsə tapıb ala bilərsən.

Kaftarkos dedi:

-Onda gəl, ikimiz də birlikdə bazara gedək.

-Yox, - dovşan başını buladı. – Bazar həftədə bir dəfə olur.

Kaftarkos qərara gəldi ki, gələn həftə mütləq bazara getsin. O, belə də etdi. Bazara girən kimi gözünə ət dükanı sataşdı. Gördü ki, hər tərəfdə qoyun və mal əti asılıb. Ağzı sulanan kaftarkos ətin üstünə tullanıb acgözlüklə yeməyə başladı. Bunu görən qəssab yekə ət baltasını götürüb kaftarkosun başına vurdu. Ağrıdan kaftarkosun gözlərindən od sıçradı. O, birtəhər qaçıb canını qurtara bildi. Meşənin bir kənarında ləhləyə-ləhləyə öz-özünə dedi:

-Bu da bazar. Orada heç nəyi havayı vermirlər, əvəzində günahsız canlıları kötəkləyirlər. Gör, dovşan məni necə aldatdı?!

Bu sözləri eşidən dovşan gülə-gülə dedi:

-Bazarda hər şey var və nə istəsən ala bilərsən. Ancaq sən gördüklərinin üstünə cumub havayı yemək istədiyin üçün yaxşıca kötəklənmisən.

Kaftarkos təəccübləndi:

-Sən də bazarda idin?

-Yox.

-Bəs onda mənim başıma gələnləri hardan bilirsən?

-Eh, kaftarkos, kaftarkos, mən səni yaxşı tanıyıram. Özgənin malına əl uzatmayanı heç kim kötəkləməz.

***Tərcümə edib işləyəni R.Y.Əliyev***

